# DÖŞLƏ QİDALANDIRMANIN PROBLEMLƏRİNƏ DAİR

**POLUXOVA A.Ə.[1], RƏHİMOVA N.C.[2]**
*Azərbaycan Tibb Universiteti, Neonatologiya kafedrası[1](Bakı, Azərbaycan)*
*K.Y. Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu[2](Bakı, Azərbaycan)*

***Açar sözlər:*** *döşlə qidalanma, ana südü, yenidoğulan*

*Aktuallığı:* Südəmər uşağın rasional inkişafı üçün alternativi olmayan ideal qida ana südüdür. Ana südü həm ananın və həm də uşağın sağlamlığına yüksək bioloji və emosional təsir göstərir. Bu səbəbdən də ana və uşağın sağlamlığının möhkəmləndirilməsi üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) XXI əsrdə ana südü ilə qidalanmaya xüsusi əhəmiyyət verir (1, 2).

Hazırda ÜST-nın ekspertləri tərəfindən ana südü ilə qidalanmaya dair məlumatların toplanması üçün qlobal məlumat bankı yaradılmışdır (3,4). Bu qlobal banka məlumat toplamaq üçün siyahıya alınmış göstəriciləri 2 qrupda cəmləmək olar.

I qrup – bura sorğu əsasında döşlə qidalanma barəsində analardan aparılan sorğular daxildir. Sorğu aparılarkən aşağıdakılara diqqət yetirilmişdir:

– Qısa müddət də olsa ana südü ilə qidalandırılan uşaqların faizi;

– Döşlə qidalanmanın orta davametmə müddəti;

– 1, 2, 3, 4, 5 və 6 ay müddətində yalnız ana südü ilə qidalanma;

– 0-6 ayadək əsasən ana südü ilə qidalanma;

– 1 (12-15 ay) və 2 yaşadək (20-23 ay) döşlə qidalanma;

– Süni qidalanma.

ÜST-nın ekspertizasına görə yalnız ana südü ilə qidalanmaya ana südündən başqa heç bir qida və su qəbul edilməməsi, əsasən ana südü ilə qidalanmaya isə ana südü ilə yanaşı su və müxtəlif mayelərin (su, çay, şirələr) qəbul edilməsi aid edilmişdir.

II qrupa qadın məsləhətxanaları, doğum evləri və uşaq poliklinikalarında ana südü ilə qidalanma barədə aparılan maarifləndirmə işlərinin nəticələrini xarakterizə edən göstəricilər daxildir.

Bu zaman aşağıdakılara fikir verilməsi tövsiyyə olunur:

– Doğum evindən evə yazılarkən döşlə qidalandırılmanın olub-olmaması;

– Doğulan andan evə yazılanadək yalnız döşlə qidalanma;

– Ana və yenidoğulmuşun doğum evində birlikdə olması, erkən döşə qoyma, əmziklə qidalanma;

– Sonrakı dövrdə sahə pediatrları tərəfindən ana südü ilə qidalanmanın aşılama dərəcəsi.

Bütün bunları əsas tutaraq biz K.Fərəcova adına ETPİ-nun ”Yenidoğulanların patologiyası” şöbəsində müalicə almış bir qrup uşaqları dinamikada izləmiş, ana südü ilə qidalanmanın vəziyyəti və problemlərini araşdırmağa çalışmışıq.

***Tədqiqatın məqsədi:*** Neonatal dövrdə yenidoğulanların patologiyası şöbəsində müalicə almış uşaqları dinamikada izləyərək tam ana südü ilə qidalanmada yaranan problemlərin göstəricilərinin araşdırılması olmuşdur.

***Material və metodlar:*** Tədqiqat obyekti kimi 2014-2015-ci ildə K. Fərəcova adına ETPİ-nun yenidoğulanların patologiyası şöbəsində müalicə almış 300 uşaq və onların anaları götürülmüşdür. Uşaqlar və analar xüsusi seçim aparılmadan təsadüfü götürülmüşdür. Körpələr dinamikada

nəzarətdə saxlanılmış, ana südü ilə qidalanmanın vəziyyəti həyatın I və II yarımilində katamnestik qiymətləndirilmişdir.

Analar ÜST-nın qlobal banka məlumat toplamaq üçün nəzərə alınmış göstəricilər əsasında tərtib edilmiş anketlər əsasında sorğu olunmuşdur. Sorğunun nəticələri "SPSS 17" statistik proqram tərtib etməklə statistik analiz olunmuşdur. Bu zaman deskriptiv analitik, statistika metodlarından istifadə olunmuşdur. Ana südü ilə qidalanmanın davametmə müddəti ilə tibbi-sosial faktorlar arasındakı əlaqə müəyyənləşdirilmiş, alınan nəticələrin dürüstlük əmsalı təyin edilmişdir.

***Müzakirə:*** Araşdırma zamanı müəyyən olunmuşdur ki, həyatın 3-6-cı aylarında 300 uşaqdan 197 (65,67%) nəfəri, II yarımildə (15 ayadək) isə yalnız 105 (35%) nəfəri döşlə qidalanmada olmuşdur.

Döşlə qidalanmanın davam etmə müddəti müxtəlif faktorlardan asılı olmuşdur. Araşdırma zamanı döşlə qidalanma ilə anaların yaşı arasında əhəmiyyətli dərəcədə asılılığın olması müəyyənləşdirilmişdir ($p<0,05$). Belə ki, 2 ayadək döşlə qidalandıran analar arasında 20 yaşadək olanlar ($p<0,05$), 4 ayadək döşlə qidalandıran analar arasında 30-35 yaşadək olanlar üstünlük təşkil etmişlər ($p<0,05$). Bu da anaların yaşı ilə döşlə qidalanmanın davametmə müddəti arasında müsbət korrelyasion əlaqənin olmasını göstərir.

Doğum evlərində ana südünün əhəmiyyətinin analara aşılanması və döşlə qidalandırma təlimlərinin keçirilməsi önəmli məsələlərdən biridir. Araşdırmalardan aydın olmuşdur ki, yalnız 169 ana (56,3%) belə təlimlər almış və bu analardan 102 (60,36%) nəfəri öz uşaqlarını 6 aydan çox ana südü ilə qidalandırmışlar.

Doğum evində döşə qoyulma ilə döşlə əmizdirmənin davametmə müddəti arasında da korrelyasion əlaqənin olması aşkar edilmişdir. Belə ki, 126 (42%) körpə doğum zalında döşə qoyulmuş, bunlardan 98 (78%) nəfəri 6 aydan çox ana südü ilə qidalandırılmışdır ($p<0,001$). 48 uşaq (16%) ilk sutkada döşə qoyulmuş, bunlardan 36 nəfərində ana südü ilə qidalandırma 3-6 ay təşkil etmişdir. Bu da ümumi müayinə olunanlar arasında 12% ($p>0,05$); ilk sutkada döşə qoyulanlar arasında 75% ($p<0,05$) təşkil edir. 126 (42%) yenidoğulan yalnız III sutkadan sonra döşə qoyulmuş və bunlardan 86 (68,25%) nəfərdə ana südü ilə qidalanma 2 ayadək davam etmişdir ($p<0,05$).

Apardığımız araşdırma zamanı analar qarışıq və süni qidalanmaya keçməni müxtəlif səbəblərlə əlaqələndirmişlər. Bu səbəblərə körpənin döşü pis götürməsi və ya döşdən imtina etməsini (5%), ananın işi və ya təhsili bəhanə edərək məzuniyyətə çıxmamasını (6%), ananın (5%) və ya körpənin (8%) xəstəliklərini, südün kifayət qədər olmasına baxmayaraq "çəkinin pis artması" (3%), südün az olmasını (52%), ananın süd verməkdən yorulmasını (3%) aid etmək olar.

14% analar südlə qidalanmanın kifayət etmədiyini düşünərək əlavə qidaya keçmələri olmuşdur.

Əksər analar hesab edirlər ki, döşlə qidalanma 12 ayadək olmalıdır. Döşlə qidalanmanın davametmə müddəti ilə ananın daxili hissləri arasında da əlaqə vardır. Belə ki, daha uzun müddət süd verən analarda uşağın sağlamlığı barədə daxili həyəcan hissi daha az olur və həmin analar mənən özlərini daha rahat

Döşlə qidalanmanın davametmə müddəti ilə tibbi-sosial faktorlar arasında əlaqəni araşdırarkən müəyyən

edilmişdir ki, uzun müddət südlə qidalandırma buna müsbət yanaşma ilə sıx əlaqədardır. Bu baxımdan qadın məsləhətxanalarında, doğum evlərində, uşaq poliklinikalarında, xəstəxanalarda döşlə qidalanmanın əhəmiyyəti barədə kifayət qədər işlərin görülməsi, hələ hamiləlik dövründə gələcək anaların südverməyə psixoloji hazırlanması əsas məsələlərdən biridir.

Sosial faktorlardan ən önəmlilərindən biri südverən analara ailə üzvlərinin və qohumlarının dəstək verməsidir. Belə ki, uşağa qulluq etmək üçün dəstək verilən ailələrdə döşlə əmizdirmə daha uzun müddət olmuşdur.

Katamnestik müşahidələrin nəticələrindən aydın olur ki, 4 ayadək əlavə qidaya keçilməsi, 8 ayadək süni qarışıqların əvəzinə adaptə olunmamış qidaların və ya inək südünün istifadə edilməsi, həmçinin qlütein enteropatiyasını provakasiyaedici faktoru kimi gündəlik rasiona banan, yulaf və buğda sıyıqlarının daxil edilməsi döşlə qidalanmaya mənfi təsir göstərmişdir.

Bəzi körpələrə əlavə qida birdəfəlik həcmdən artıq verildiyinə görə (məsələn, kəsmiyin 50 qr-dan çox olması) yetkin olmayan böyrəyin zülalla yüklənməsinə gətirib çıxarır.

***Nəticə:*** Ana südü ilə qidalanma tibbi-sosial problem olmaqla bərabər həm körpənin sağlam böyüməsi, həm də ananın psixo-emosional rahatlığı üçün əvəz olunmaz faktorlardan biridir. Uzun müddətli döşlə qidalanmanın təmin olunması üçün qadın məsləhətxanaları və doğum evlərində bu istiqamətdə maarifləndirmə və sosial-psixoloji hazırlıq işləri aparılmalıdır. Bu da doğum evlərində erkən döşə qoyulmanın vacibliyini bir daha sübut edir.

**ƏDƏBİYYAT:**

1. Питания детей грудного и раннего возраста. Доклад секретариата 63-я сессия ВОЗ. Женева 2010.
2. Евлоева П.М. Комплексная медико-социальная оценка распространенности и длительности грудного вскармливания в Чеченской Республике и Республике Ингушетия. Автореф.дисс.канд.мед.наук м. 2013, 14 с.
3. Global data bank on breastfeeding and complementary feeding.WHO2002http://www.whoint/research /iycf/ bfcf/ bfcf . asp
4. Implementation of the Baby-friendly Hospital Intiatine in industialized countries. Summary of reports by county coordinators/ Local points. WHO. Geneva, 2008.

## SUMMARY
## ABOUT BREASTFEEDING PROBLEMS

**Polukhova A.A.[1], Rahimova N.J.[2]**
*Azerbaijan Medical University, Department of Neonatology[1]*
*Scientific Research Pediatric University named after K.Y.Farajova[2]*

***Key word:*** *breastfeeding, breast-milk, newborn*

In this article 300 neonatal catamnestik problems concerning breastfeeding have been analyzed. The research shows us that, early breastfeeding is the most important term in this direction.